***19.12.2024-cü il tarixinə qədər olan məlumata əsasən***

**Türkiyə Respublikası**

## Miqrasiya sahəsində qanunvericilik bazası

Türkiyə Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin ümumi prinsipləri, xüsusilə onların hüquq və vəzifələri əsasən

- ✓ Türkiyə Respublikasının Konstitusiyası;
- ✓ Türkiyə Respublikasının "Əcnəbilər və Beynəlxalq Himayə haqqında" Qanunu (*Yabancılar ve Uluslararası Koruma Kanunu, Nömrəsi - 6458, Qəbul edildiyi tarix – 04.04.2013);*
- ✓ "Əcnəbilərin İş İcazələri haqqında" Qanunu (*Yabancıların Çalışma İzinleri Hakkında Kanun, Nömrəsi - 4817, Qəbul edildiyi tarix – 27.02.2003);*
- ✓ "Türk Vətəndaşlığı" haqqında Qanunu *(Türk Vatandaşlığı Kanunu, Nömrəsi - 5901, Qəbul edildiyi tarix – 29.05.2009);*
- ✓ "Birbaşa Əcnəbi İnvestisiyaları" Qanunu *(Doğrudan Yabancı Yatırımlar Kanunu, Nömrəsi - 4875, Qəbul edildiyi tarix – 05.06.2003);*
- ✓ "Məskunlaşma haqqında" Qanunu (*İskân Kanunu, Nömrəsi - 5543, Qəbul edildiyi tarix – 19.09.2006)* ilə tənzimlənir.

Miqrasiya sahəsində digər qanunvericilik aktları barədə ətraflı məlumat üçün Türkiyə Respublikasının müvafiq rəsmi vebsəhifəsinə (https://www.mevzuat.gov.tr/) müraciət edə bilərsiniz.

## Ölkəyə daxil olma qaydaları

2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında Saziş"ə əsasən, Azərbaycan Respublikası vətəndaşları Türkiyə Respublikasının ərazisinə daxil olmaq, tranzit keçmək, ölkədən getmək və müvəqqəti qalmaq üçün Türkiyə Respublikasının milli qanunvericiliyinin icazə verdiyi maksimum qalma müddəti saxlanılmaq şərti ilə 90 (doxsan) gün müddətinə viza tələbindən azaddırlar. Azərbaycan Respublikasının vətəndaşları digər xarici ölkə vətəndaşları kimi Türkiyə Respublikasının ərazisində hər 180 gün ərzində 90 gündən çox olmamaq şərti ilə qalmaq hüququna malikdir. Müvafiq ölkə ərazisində 90 (doxsan) gündən artıq müddətə qalmaq istəyən Azərbaycan Respublikasının vətəndaşları müvəqqəti yaşama icazəsi almaq üçün bu müddət bitmədən müraciət etməlidirlər. Bu zaman yaşamaq icazəsi almaq üçün tələb olunan müddətdən azı altmış (60) gün daha çox etibarlı olan pasport ilə müraciət edilməlidir.

Türkiyə Respublikasına səyahət edən Azərbaycan Respublikası vətəndaşları üçün vizadan azad səyahət çərçivəsinə etibarlı sərhədkeçmə sənədləri aşağıdakılardır:

- ❖ Azərbaycan Respublikasının diplomatik pasportu;
- ❖ Azərbaycan Respublikasının xidməti pasportu;
- ❖ Azərbaycan Respublikasının ümumvətəndaş pasportu;

- Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO-nun) 9303 saylı sənədinin və onun cari əlavələrinin standartlarına müvafiq olaraq maşınla oxunan və biometrik məlumatları ehtiva edən);
- Azərbaycan Respublikası dənizçinin şəxsiyyət sənədi (gəmi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə);
- dəmir yolu nəqliyyatı işçisinin şəxsiyyət vəsiqəsi (qatarların briqadası tərkibində hərəkət etdiyi təqdirdə);
- uçuş heyətinin şəxsiyyət vəsiqəsi;
- Azərbaycan Respublikasının vətəndaşına rəsmiləşdirilən Azərbaycan Respublikasının qayıdış şəhadətnaməsi (Azərbaycan Respublikasına qayıtmaq üçün və Türkiyə Respublikasında yalnız müvəqqəti qalmaq, oradan tranzit keçmək və çıxmaq üçün).

## Ölkədə yaşama qaydaları

“Əcnəbilər və Beynəlxalq Himayə haqqında” Qanuna uyğun olaraq, Türkiyə Respublikasının ərazisində əcnəbilərə verilən yaşama icazəsinin 6 növü mövcuddur. Verilən yaşama icazələri 6 ay ərzində əcnəbi tərəfindən istifadə olunmadıqda etibarlılığını itirmiş sayılır. (Daha ətraflı)

1. ***Qısa müddətli yaşama icazəsi*** – Aşağıdakı hallarda ən çox 2 il müddətinə verilir:

- *Elmi-tədqiqat işlərinin görülməsi ilə əlaqədar olaraq* - Bu məqsədlə müvəqqəti yaşama icazəsi almaq istəyən əcnəbilərdən müvafiq qurum və təşkilatlardan (Mədəniyyət və Turizm Nazirliyi, Enerji Nazirliyi, universitetlər və s.) lisenziya alması tələb olunur.
- *Türkiyədə daşınmaz əmlak sahibi olduğu təqdirdə* - Daşınmaz əmlak ev olmalı və bu məqsədlə istifadə edilməlidir. Əmlak üzərində pay sahibi olarsa, ailə üzvlərinin də müraciət etmək hüququ var;
- *Ticarət və ya biznes əlaqələrinin qurulması ilə əlaqədar olaraq* – Qeyd olunan əsasla müraciət zamanı əcnəbidən onu dəvət edən şəxsin və ya şirkətin dəvət məktubu tələb oluna bilər;
- *Təhsil proqramlarında və tələbə mübadiləsi proqramları və ya Türkiyə Respublikasının tərəfdar çıxdığı sazişlər çərçivəsində oxşar proqramlarda iştirak ilə əlaqədar;*
- *Turizm məqsədi ilə əlaqədar;*
- *Təhlükəli xəstəliklər istisna olmaqla, ölkədə müalicə almaqla əlaqədar* – Qeyd olunan əsasa görə müvəqqəti yaşama icazəsi müalicə müddətinə verilir;
- *Əcnəbilərin dövlət qurumlarının qərarı və ya sorğusu ilə ölkədə qalması tələb olunduqda;*
- *Türk dilinin öyrənilməsi kurslarında iştirak etdikdə* - Türkiyə Respublikası Milli Təhsil Nazirliyinin icazəsi olmalıdır və qeyd olunan əsasa görə icazə ən çox 2 dəfə verilir;
- *Dövlət qurumları tərəfindən təşkil olunan təhsil proqramlarında, tədqiqat, internatura və kurslarda iştirak;*

- *Əcnəbi Türkiyədə ali təhsilini başa vurduqdan sonra 6 ay müddətində yaşama icazəsi üçün müraciət etdikdə* - qeyd edilən əsasa görə yaşama icazəsi 1 dəfə və maksimum 1 il müddətinə verilir;
- *Türkiyədə işləməyən, lakin Türkiyə Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən miqdarda investisiya qoyan əcnəbilər və onların ailə üzvləri müraciət etdikdə* - qeyd edilən əsasa görə yaşama icazəsi maksimum 5 il müddətinə verilir;

2. ***Ailə yaşama icazəsi*** - Türkiyə Respublikası vətəndaşlarının, "Türk Vətəndaşlığı" haqqında Qanunun 28-ci maddəsində qeyd olunan şəxslərin (Türkiyə Respublikası vətəndaşlığından çıxma ilə əlaqədar icazə verilməsi üçün müraciət etmiş və bunun əsasında Türkiyə Respublikası vətəndaşlığına xitam verilmiş şəxslərin), qaçqınların və əlavə himayə statusu olan şəxslərin əcnəbi olan həyat yoldaşlarına, yetkinlik yaşına çatmayan övladlarına, himayəsində olan övladlarına hər dəfə 3 ildən çox olmayan müddətə verilir. Eyni zamanda, Türkiyə Respublikasında ailə yaşama icazəsi olan 18 yaşına qədər əcnəbilər tələbə yaşama icazəsi olmadan ibtidai və orta təhsil almaq hüququna malikdirlər.

3. ***Tələbə yaşama icazəsi*** - Türkiyə Respublikasının ali (bakalavr, magistr, doktorantura, ixtisasartırma) və orta təhsil müəssisələrində təhsil alan əcnəbilərə hər dəfə təhsil müddəti nəzərə alınmaqla 1 ildən çox olmayan müddətə verilir. Tələbə yaşama icazəsinə malik ali təhsil müəssisələrində təhsil alan əcnəbilər iş icazəsi almaqla əmək fəaliyyəti ilə məşğul ola bilərlər.

4. ***Uzun müddətli yaşama icazəsi*** - Türkiyə Respublikasında fasiləsiz olaraq ən az 8 il müddətinə yaşamış olan və ya Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş şərtlərə cavab verən əcnəbilərə Nazirliyin təsdiqi ilə yerli idarələri tərəfindən verilir. Uzun müddətli yaşama icazəsi müddətsiz verilir. Qaçqın statusu, əlavə himayə, müvəqqəti himayə və humanitar yaşama icazəsi əsasında yaşayan əcnəbilərə qeyd edilən yaşama icazəsi verilmir. Uzunmüddətli yaşama icazəsinə sahib əcnəbilər hərbi xidmət, səs vermə hüququ, dövlət orqanlarında çalışmaq hüququ və s. istisna olmaqla Türkiyə Respublikası vətəndaşları ilə bərabər hüquqları daşıyırlar.

5. ***Humanitar yaşama icazəsi*** - "Əcnəbilər və Beynəlxalq Himayə haqqında" Qanunun 46-cı maddəsində nəzərdə tutulmuş hallarda (uşaqların maraqlarının qorunması məqsədilə, müraciət edən şəxsin öz ölkəsinə qaytarılması imkanları olmadıqda, fövqəladə hallar zamanı və s.) hər dəfə ən çox 1 il müddətinə verilir və uzadılır.

6. ***İnsan alveri qurbanına verilən yaşama icazəsi*** - İnsan alverinin qurbanı olan və ya olması ehtimalı (şübhəsi) yüksək olan əcnəbilərə hər dəfə ən çox 30 gün müddətinə verilir, ən çox 6 ay müddətinə uzadılır və ümumilikdə 3 ildən çox olmur.

Türkiyə Respublikasının ərazisində yaşama icazəsinin əldə olunması ilə əlaqədar əcnəbilər Türkiyə Respublikasının ölkələrində fəaliyyət göstərən diplomatik nümayəndəlik və ya konsulluqlarına, və ya https://e-ikamet.goc.gov.tr rəsmi

vebsaytında mövcud olan "*e-ikamet*" sistemi vasitəsi ilə onlayn olaraq müraciət edə bilərlər. Eyni zamanda, Türkiyə Respublikasının ərazisində olan əcnəbilər müraciətlərini Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Miqrasiya üzrə Baş Direktorluğunun rayonlar üzrə yerli şöbələrinə də edə bilərlər. Müraciətlər həm şəxsin birbaşa özü tərəfindən, həm də Türkiyə Respublikası Daxili İşlər Nazirliyi tərəfindən qeydiyyatdan keçirilmiş məsul vasitəçi təşkilatlar vasitəsilə oluna bilər.

Türkiyə Respublikasının ərazisində əcnəbilərə verilən yaşama icazəsi ilə bağlı suallar və yaranan problemlərin həlli üçün 24 saat fasiləsiz fəaliyyət göstərən *Əcnəbilərlə Əlaqə Mərkəzi (Yabancılar İletişim Merkezi (YİMER) ölkədaxili zənglər üçün 157, ölkə xaricindən edilən zənglər üçün +90 312 157 11 22 mömrəli telefon*) ilə əlaqə saxlamaq olar.

## Əmək fəaliyyəti ilə məşğul olma

Əcnəbilər Türkiyə Respublikasında əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi əldə etməlidirlər. Əcnəbi ölkədə qaçqın statusu və ya əlavə himayə statusunu aldıqdan sonra müstəqil və asılı şəkildə əmək fəaliyyəti ilə məşğul ola bilər. İş icazələrinin verilməsi üzrə məsul qurum Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyidir. İş icazəsinin alınması üçün Türkiyədə, eyni zamanda xaricdə müraciət edilməsi mümkündür. Hər iki halda iş icazəsinin alınması ilə bağlı müraciəti işəgötürən həyata keçirməlidir.

Türkiyədə əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilər Türkiyə İş Agentliyinə (İŞKUR hökumət agentliyi) müraciət etməklə iş axtarılmasında dəstək ala, praktiki iş bacarıqlarını təkmilləşdirə, iş təcrübəsini genişləndirə, şəxsi biznesin qurulması və inkişaf etdirilməsi sahəsində təcrübə əldə edə, hüquqi məsləhətlər ala bilərlər. Daha ətraflı məlumat əldə etmək üçün **444 75 87** qaynar xəttinə və **0312 216 30 00** telefon nömrəsinə zəng edə və ya www.iskur.gov.tr veb səhifəsinə müraciət edə bilərsiniz.

## Vətəndaşlığa qəbul qaydaları

Türkiyə Respublikasında vətəndaşlığa dair məsələlər və onların həlli qaydaları *"Türk Vətəndaşlığı" haqqında Qanun (Türk Vatandaşlığı Kanunu, Nömrəsi - 5901, Qəbul edildiyi tarix – 29.05.2009) ilə tənzimlənir.* Qeyd olunan məsələ barədə ətraflı məlumat üçün Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Əhali və Vətəndaşlıq məsələləri Baş İdarəsinin rəsmi vebsaytına (https://www.nvi.gov.tr) müraciət edə bilərsiniz. Mövcud qanunlara əsasən Türkiyə vətəndaşlığı 2 yolla - anadangəlmə və sonradan əldə edilə bilər. Anadangəlmə yolu ilə əldə edilən vətəndaşlıq doğum yeri və qan prinsipinə əsaslanır. Belə ki, Türkiyə Respublikasında anadangəlmə yolu ilə qazanılan vətəndaşlıq doğum anından etibarən qanuni qüvvəyə minir. Həmçinin valideynlərindən birinin Türkiyə Respublikası vətəndaşı olması doğulan şəxsin Türkiyə Respublikasının vətəndaşlığını qazanması üçün əsas sayılır.

Türkiyə Respublikasının vətəndaşlığının əldə edilməsi üçün əsaslar aşağıdakılardır:

1. *Öz ölkəsinin qanunlarına görə yetkinlik yaşına çatmış olmaq;*
2. *Müraciət tarixindən əvvəl Türkiyədə ən azı fasiləsiz 5 il yaşamış olmaq;*
3. *Ümumi sağlıq baxımından təhlükəli xəstəliyinin olmaması;*

4. *Cəmiyyət içərisində məsuliyyətli olmaqla yaxşı əxlaq sahibi olmaq;*
5. *Cəmiyyətdə lazımı səviyyədə türk dilində danışmaq;*
6. *Türkiyədə özünün və ya ailə üzvlərinin ehtiyaclarını təmin edə biləcək gəlirə və ya məşğuliyyətə sahib olmaq;*
7. *Milli təhlükəsizlik və dövlət intizamı baxımdan maneə təşkil edəcək hala malik olmamaq.*

Bundan əlavə, Türkiyə Respublikasında vətəndaşlığın digər əldə edilmə üsulları kimi, *Türkiyə Respublikası vətəndaşı tərəfindən övladlığa götürülmə, Şimali Kipr Türk Respublikasının vətəndaşı olaraq müraciət etmə, qanuna uyğun olaraq müvafiq Nazirliyin təklifi və ya Nazirlər Kabinetinin qərarı qəbul olma, Türkiyə Respublikası vətəndaşı ilə ən azı 3 il evli olma (evliliyin davam etməsi şərti ilə) və s. hallarını qeyd etmək olar.*

## İnzibati məsuliyyət

Türkiyə Respublikasında viza müddətindən, müvəqqəti olma müddətindən, həmçinin müvəqqəti yaşama icazəsinin etibarlılıq müddətindən artıq qalan əcnəbilər üçün ölkə qanunvericiliyində müxtəlif inzibati cərimə məbləği nəzərdə tutulmuşdur. Ölkə qanunvericiliyində nəzərdə tutulmuş inzibati cərimə məbləği ödənilmədikdə əcnəbilərin ölkə ərazisinə girişinə ən çox 5 il müddətinə məhdudiyyət qoyulur. Bəzən, ölkə təhlükəsizliyi ilə bağlı tələb olunan hallarda Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Miqrasiya üzrə Baş Direktorluğu tərəfindən 10 il müddətinə qədər giriş qadağası qoyula bilər. Türkiyə Respublikasında viza müddətindən, müvəqqəti olma müddətindən, həmçinin müvəqqəti yaşama icazəsinin etibarlılıq müddətindən artıq qalan əcnəbilər təyin edilmiş cəriməni ödədikləri təqdirdə eyni gün içərisində ölkəyə giriş-çıxış etmək hüququna malik olurlar, onların girişinə qoyulmuş qadağa aradan qaldırılır və 10 gün içərisində müvəqqəti yaşama icazəsi almaq üçün müraciət edə bilirlər. (Daha ətraflı)

**Qeyd:** *Türkiyə Respublikasına səfər edən, həmin ölkədə yaşamaq və əmək fəaliyyəti ilə məşğul olmaq istəyən Azərbaycan Respublikası vətəndaşları viza məsələləri və bundan irəli gələn məsələlərlə əlaqədar Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinə müraciət edə bilərlər. Çağrı Mərkəzinin 7 gün 24 saat fəaliyyət göstərən əlaqə nömrəsi: + 90 312 292 29 29. (Daha ətraflı).*